**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 32**

# TÜRK DÖVLƏTLƏRİNİN STRATEJİ ƏMƏKDAŞLIĞI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN-TÜRKMƏNİSTAN MÜNASİBƏTLƏRİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN TÜRKMƏNİSTAN MEDİASINDA ƏKSİ

**Pərvanə İBRAHİMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 18 noyabr 2023; çapa qəbul edilmişdir: 30 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.

Received: 18th of November, 2023; accepted: 30th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *Azərbaycan, Türkmənistan, İkinci Qarabağ müharibəsi, strateji əməkdaşlıq, Türkmənistan mediası*

## Giriş

Türk dünyasının bir parçası olaraq bənzər dəyərlərə malik olan Azərbaycan və Türkmənistan müstəqillik əldə etdikdən sonra, ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın artırılması istiqamətində müxtəlif addımlar atmışdır. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasından sonra siyasi, iqtisadi və mədəni sahədə əməkdaşlıq, qarşılıqlı hörmət, həmrəylik və ümumi maraqlar əsas götürülərək daha da inkişaf etdirilmişdir. Bununla belə, hər iki ölkə regional təhlükəsizlik və sabitlik məsələlərində birgə çalışaraq, türk dünyasının ümumi inkişafına töhfə verməyi hədəfləmişdir.

Türkmənistan Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də neytral mövqe nümayiş etdirmişdir. Bu kontekstdə Türkmənistan regional münaqişələrin tərəfi olmayaraq, diplomatik həll yollarını dəstəkləmək prinsiplərini qoruyub saxlamış, sülhün və sabitliyin möhkəmləndirilməsinin ümumi prinsiplərinə uyğun münasibət sərgiləmişdir.

## Azərbaycan və Türkmənistan Respublikaları arasındakı münasibətlərin inkişaf perspektivləri

Azərbaycan və Türkmənistan arasındakı əlaqələr hər iki dövlətin müstəqillik əldə etməsindən sonra genişlənməyə başlamışdır. 1992-ci ildə iki müstəqil türk dövləti arasında diplomatik münasibətlər qurulsa da, ölkələrarası əməkdaşlıq bir müddət arzu olunan səviyyədə olmamışdır. Mütəxəssislər tərəfindən bunun bir neçə səbəbi göstərilmişdir. Birincisi, SSRİ dağıldıqdan sonra Xəzərin statusu və resursların bölüşdürülməsi problemi ortaya çıxmış, ikincisi Türkmənistan müstəqillik əldə etdikdən sonra fəal xarici siyasət yürütməmiş və inkişaf edən proseslərə münasibətdə mümkün qədər neytral mövqedən çıxış edərək, ittifaqlardan uzaq durmuşdur. Üçüncüsü isə Azərbaycanın o dövrkü xarici siyasətində Orta Asiya türk cümhuriyyətləri ilə əlaqələr Türkiyə qədər prioritet olmamışdır (7, s. 102). Ancaq Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra münasibətlərin inkişaf etdirilməsi üçün səyləri artırmışdır. 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının Aşqabadda keçirilən Zirvə Toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Toplantı çərçivəsində Türkmənistan Prezidenti Saparmurad Niyazovla görüşmüşdür. İki ölkə liderləri arasında dostluq əlaqələrini möhkəmləndirmək məqsədi daşıyan görüş, əməkdaşlığın inkişafı və regional sabitliyin

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti*
*e-mail:* pervanei@mail.ru
ORCID: 0000-0002-5598-7266

dəstəklənməsi istiqamətində mühüm addım kimi qiymətləndirilmişdir. Prezident Heydər Əliyev 1994-cü ildə Türkmənistanın müstəqillik günü münasibəti ilə keçirilən tədbirlərində iştirak etmişdir.

1996-cı ilin mart ayında Azərbaycan və Türkmənistan dövlətləri arasında yaranan yaxınlaşmanın göstəricisi kimi, Türkmənistan Prezidenti Saparmurad Niyazov Azərbaycana rəsmi səfərə gəlmişdir. Səfər iki ölkənin ümumi maraqlarını gücləndirmək, ticarət həcmini artırmaq və enerji layihələri kimi strateji sahələrdə əməkdaşlığı dərinləşdirmək məqsədi daşımışdır. Səfər zamanı hər iki ölkənin gələcəyi üçün böyük əhəmiyyət kəsb edən diplomatik münasibətlərin və əməkdaşlığın daha da möhkəmlənməsini simvolizə edən bir sıra sənədlər imzalanmışdır. Sənədlər arasında iqtisadi əməkdaşlıq və ticarət sazişləri, mədəni mübadilə protokolları və bir çox digər sahələrdə ortaq maraqları əhatə edən sənədlər yer almışdır (6, s. 25).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu səfərdən təxminən iki ay sonra 1996-cı ilin may ayının 13-14-ü tarixlərində Türkmənistanın paytaxtı Aşqabadda təşkil olunan İqtisadi Əməkdaşlıq Təşkilatının IV Zirvə toplantısına qatılmışdır. Zirvə toplantısında çıxış edən Prezident Heydər Əliyev, ölkələr arasında əməkdaşlığın vacibliyini vurğulamışdır (5). Lakin 1997-ci ilin yay aylarında Azərbaycan  Rusiyanın "Rosneft" və "Lukoyl" şirkətləri ilə "Kəpəz" yatağında neft fəaliyyətinin inkişafı ilə bağlı müqavilə imzalamasına Türkmənistan tərəfindən təzyiq göstərilmiş və nəticə olaraq  şirkətlər sazişdən çıxmışdır. Bu hadisə  Azərbaycanın reaksiyasına səbəb olmuşdur. Bundan başqa, Türkmənistanın bu sahədə birtərəfli suverenlik iddiası Azərbaycan tərəfindən qəbul edilməmişdir. 1999-cu ildə Bakıda açılan Türkmənistan səfirliyinin 2001-ci ildə fəaliyyətinə xitam verməsi, münasibətlərin bir qədər də gərginləşməsinə səbəb olmuşdur. Türkmənistan lideri Qurbanqulu Berdiməhəmmədovun dövründə Türkiyənin təşəbbüsləri ilə münasibətlər yenidən normallaşaraq, 2008-ci ildə Türkmənistanın Bakıdakı səfirliyi fəaliyyətini bərpa etmişdir (8, s. 221). Azərbaycanın Türkmənistanda səfirliyi isə 2002-ci ildə açılmışdır (4, s. 141). Ümumiyyətlə, 2008-ci il Türkmənistanla Azərbaycan arasında əlaqələrin möhkəmləndiyi, strateji tərəfdaşlıq mühitinin formalaşdığı il kimi tarixə düşmüşdür. 2008-ci il mayın 19-20-i tarixlərində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri zamanı keçirilən görüşlərdə enerji, ticarət və mədəniyyət sahələrində gələcək əməkdaşlıq və qarşılıqlı fəaliyyətə dair anlaşma istəyi ifadə olunmuşdur. Həmin ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri əlaqələrin daha da dərinləşməsinə təsir etmişdir. Səfər zamanı geniş əməkdaşlıq əlaqələri çərçivəsində enerji layihələri, ticarət potensialı və regional təhlükəsizlik kimi məsələlər üzrə sazişlər imzalanmışdır. Məxdumqulu adına Türkmənistan Dövlət Universiteti tərəfindən Prezident İlham Əliyevə fəxri professor adının verilməsi, iki liderin şəxsi dostluğunun və ölkələr arasındakı əlaqələrin möhkəm təməllər üzərində olduğunun rəmzi kimi qiymətləndirilmişdir (3, s. 291).

2010-cu il noyabrın 18-də regionda enerji və təhlükəsizlik məsələlərini həll etmək üçün Xəzər dənizi ilə həmsərhəd olan beş ölkənin liderləri Bakıda Xəzər sammitində bir araya gəlmişdir. Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun sammit zamanı Xəzər dənizindəki neft və təbii qazın boru kəmərləri ilə nəql oluna biləcəyi barədə bəyanatı, məsələ ilə bağlı mühüm perspektivi ortaya qoymuşdur (11).

2012-ci ildə Türkmənistan gəmilərinin mübahisəli ərazilərdən biri hesab olunan "Kəpəz" yatağında apardığı seysmik kəşfiyyat işləri ilə bağlı Türkmənistanın Bakıdakı səfiri T.Komekovun iyunun 18-də Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılaraq nota verilməsi, iki ölkə arasındakı münasibətlərin yenidən gərginləşməsinə səbəb olmuşdur (8, s. 221). Bununla belə, 2014-cü il Türkmənistan-Azərbaycan münasibətlərində müsbət dövrün başlanğıcı olmuşdur. Həmin ildə keçirilən mühüm zirvə görüşləri əlaqələrin bərpasına və inkişafına təkan vermişdir. 2014-cü il mayın 26-da Türkiyənin vasitəçiliyi ilə keçirilən Azərbaycan, Türkmənistan və Türkiyə Xarici İşlər Nazirlərinin görüşündə bir çox vacib məsələlərlə yanaşı, enerji və nəqliyyat kimi strateji məsələlər də müzakirə olunmuşdur. Daha sonra 2014-cü il iyunun 4-5-də Türkmənistan, Azərbaycan və Türkiyə prezidentləri IV Türk Şurası Sammiti çərçivəsində Bodrumda bir araya gəlmişdir (10). Bu görüş liderlərə təkbətək dialoq vasitəsilə problemlərin həll olunmasına diqqət yetirməyə imkan

vermişdir.

2014-cü il sentyabrın 29-da Xəzər dənizinin bölüşdürülməsi və istifadəsi ilə bağlı qeyri-müəyyənlikləri aradan qaldırmaq məqsədi ilə Həştərxanda Xəzəryanı 5 ölkənin dövlət başçılarının 4-cü sammiti baş tutmuşdur (12). Bu sammitdə atılan əhəmiyyətli addımlar və imzalanan sazişlər regionda müxtəlif məsələlər üzrə əməkdaşlığın dəstəklənməsi istiqamətində mühüm səylərin təzahürü olaraq dəyərləndirilmişdir. 2015-ci il yanvarın 29-da Aşqabadda keçirilən Türkmənistan-Azərbaycan-Türkiyə Xarici İşlər Nazirlərinin Üçtərəfli görüşü isə regional əməkdaşlıq və üç ölkə arasında əlaqələrin möhkəmləndirilməsi üçün vacib müstəvi rolunu oynamışdır. Görüşün əsas müzakirə mövzusu olan enerji sahəsində əməkdaşlıq, üç ölkə arasındakı strateji tərəfdaşlığın daha da dərinləşdirilməsinə istiqamətlənmişdir (2). Həmin ilin 12 iyununda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə Bakıya gəlmiş və Avropa Oyunlarının açılış mərasimində iştirak etmişdir. Bu səfər regional əməkdaşlığın və dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün mühüm imkan yaratmışdır. Açılış mərasimindən sonra keçirilən görüşdə Azərbaycan və Türkmənistan liderləri arasında müxtəlif məsələlər müzakirə olunaraq, həm regional, həm də ikitərəfli münasibətlər ətrafında fikir mübadiləsi aparılmışdır (1). 2017-ci il avqustun 8-də Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov yenidən Azərbaycana rəsmi səfərə gəlmişdir. Türkmənistan liderinin səfəri ölkələrarası strateji tərəfdaşlığını daha da gücləndirən hadisə olmuşdur. Belə ki, Bakıda Türkmənistan və Azərbaycan prezidentləri arasında keçirilən görüşdə “Strateji tərəfdaşlıq haqqında bəyannamə” imzalanmışdır. Bəyannamədə xüsusilə qarşılıqlı səfərlərin artırılmasının və liderlər arasında müntəzəm dialoqun davam etdirilməsinin vacibliyi vurğulanmışdır. Bundan əlavə, bəyannamədə Xəzər dənizinin statusuna diqqət yetirilmiş və regional əhəmiyyətli bu məsələdə, hər iki ölkənin əməkdaşlıq etmək niyyəti öz əksini tapmışdır. Daha sonra Prezident İlham Əliyevin 2018-ci il noyabrın 21-də Türkmənistana rəsmi səfəri baş tutmuşdur. Səfərin yekunu olaraq “Türkmənistan və Azərbaycan arasında 2019-2021-ci illər üçün ticarət-iqtisadi əməkdaşlıq Proqramı” imzalanmışdır. Saziş qeyd edilən illər üçün ticarət və iqtisadi əməkdaşlığı gücləndirmək məqsədi daşımış, enerji, nəqliyyat, mədəniyyət və turizm kimi bir sıra sektorlarda birgə layihələri əhatə etmişdir.

2019-2021-ci illərdə Azərbaycan və Türkmənistan liderləri Bakı və Aşqabadda keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında, İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə iştirak etmişlər. 2020-ci il martın 11-də Türkmənistan lideri Q.Berdiməhəmmədovun Azərbaycana rəsmi səfərə gəlməsi ölkələrarası əlaqələrin daha da inkişaf etməsinə təkan olmuşdur. 2021-ci il yanvarın 21-də iki ölkə lideri arasında baş tutan videokonfrans mühüm diplomatik inkişafın göstəricisi olmuşdur. Görüşdə Xəzər dənizindəki mübahisəli “Kəpəz” yatağının karbohidrogen ehtiyatlarının birgə kəşfiyyatı, işlənməsi və istismarı üzrə “Anlaşma Memorandumu” imzalanmışdır. Prezident İlham Əliyev bəyanatında bu sazişin tarixi sənəd olduğunu vurğulamış və iki ölkənin Xəzər dənizindəki enerji ehtiyatlarının birgə istismarı ilə bağlı qərarının tarixi addım olduğunu qeyd etmişdir (6, s. 27-31).

Azərbaycan-Türkmənistan münasibətləri 2022-ci il martın 19-da hakimiyyətə gələn S. Berdiməhəmmədovun dövründə də yüksələn istiqamətdə inkişaf etmişdir. Belə ki, Prezident İlham Əliyev 2022-ci ilin iyunun 29-da Türkmənistana rəsmi səfər etmiş və Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısına qatılmışdır. Həmin ilin dekabrın 14-də Prezident İlham Əliyev iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibəti ilə Sərdar Berdiməhəmmədovun dəvəti əsasında yenidən Türkmənistana işgüzar səfərə getmişdir. Eyni zamanda, səfər ərəfəsində Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin 1-ci Üçtərəfli Zirvə görüşü keçirilmiş, 2-ci Zirvə görüşünün Bakıda baş tutması planlaşdırılmışdır. Türkmənistan Prezidenti S.Berdiməhəmmədov 2023-cü il 19 mart tarixində Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün Azərbaycanda işgüzar səfərdə olmuşdur. Azərbaycan və Türkmənistan prezidentləri ölkələr arasındakı siyasi dialoqun yüksək səviyyədə olduğunu, mədəni, humanitar

sahələrdə əlaqələrin inkişaf etdiyini bildirmiş, Azərbaycanla Türkmənistanın enerji, pambıqçılıq, nəqliyyat, investisiyalar və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlara malik olduqlarını qeyd etmişlər.

**Türkmənistan mediasının fəaliyyət prinsipləri**

Türkmənistanda kütləvi informasiya vasitələri 1890-cı illərdən etibarən yaranmağa başlamışdır. Çar hakimiyyəti dövründə ilk qəzetlərin meydana çıxması ilə media sahəsində müəyyən inkişaf prosesinə start verilmişdir. 1895-1913-cü illərdə Aşqabadda "Закаспийское обозрение" ("Transxəzər icmalı") adlı yarı-rəsmi qəzet nəşr olunmuşdur. Bu qəzet fəaliyyət göstərdiyi dövrdə əsas kommunikasiya vasitəsi kimi bölgədəki prosesləri oxuculara təqdim etmişdir. 1899-1918-ci illərdə dərc olunan "Aşqabad" qəzeti isə xüsusi xarakterli liberal burjua qəzeti kimi fəaliyyət göstərmişdir (9, s. 160). Hər iki qəzet rusca nəşr olunmuşdur. Çünki bu dövrdə milli mətbuatın yayılmasının qarşısı müəyyən qədər alınmış və Birinci Dünya müharibəsi başlayanadək Türkmənistanda milli mətbuatla bağlı demək olar ki, heç bir inkişaf olmamışdır. Birinci Dünya müharibəsinin başlaması ilə Türkmənistanda məhdud sayda yayıma icazə verilmiş və rabitə vasitələri sahəsində müəyyən liberallaşma müşahidə edilmişdir. Lakin Sovet işğalından sonra mətbuat tamamilə dövlət nəzarətinə keçmiş və işğala məruz qalan digər ölkələrdə olduğu kimi, Türkmənistanda da, mətbuat azadlığı məhdudlaşdırılmışdır.

1920-ci ildə Türkmənistan dilində çıxan ilk sovet qəzeti olan "Türkmənistan" rəsmi orqan olaraq fəaliyyət göstərmiş və 1924-cü ildə Türkmən Sovet Sosialist Respublikasının yaradılması ilə gündəlik nəşrə çevrilmişdir (9, s. 168). Sovet ideologiyasının təsiri altında "Türkmənistan" qəzeti bölgədə baş verən siyasi, iqtisadi və mədəni prosesləri əks etdirməklə Sovet İttifaqı haqqındakı rəsmi fikirlərin ictimaiyyətə çatdırılmasında mühüm rol oynamışdır. Qəzetin nəşrə başlaması ilə Türkmənistanda gündəlik həyat, ictimai dəyişikliklər və inqilablar, sovet administrasiyasının dəstəklədiyi siyasətlə bağlı məsələlər işıqlandırılmışdır. "Türkmənistan" qəzeti sovet ideologiyasının təbliğat elementlərini bölgədəki oxucu kütləsinə çatdıraraq, cəmiyyəti bir araya gətirmək, ideologiyanı yönləndirmək məqsədi daşımışdır.

Türkmənistanda müntəzəm radio yayımına 1927-ci ildə, televiziya yayımına isə 1959-cu ilin noyabrında başlanılmışdır (9, s. 169). Televiziya da radio kimi Sovet ideologiyasının təbliğat elementlərinin cəmiyyətə çatdırılmasında mühüm rol oynamışdır.

Sovet İttifaqında 1980-ci illərin sonunda həyata keçirilən açıqlıq və şəffaflıq ("Гласность") siyasətinin təsirləri Türkmənistanda çox məhdud hiss edilmişdir. Belə ki, 1990-cı ildə Kommunist Partiyasının çap mediası üzərində nəzarəti dayandırması ilə Türkmənistan Respublikası, yaxud yerli səviyyədə dövlət qurumları müstəqil media qurumlarına nəzarət etmək üçün həmin resursları satın almışdır. Bu vəziyyət Türkmənistanda mətbuat azadlığının məhdudlaşdırıldığı bir mühitin davam etməsinə səbəb olmuşdur.

Türkmənistan müstəqillik qazandığı 1991-ci ildən 2013-cü il yanvarın 4-ü tarixinə kimi media haqqında qanunu dəyişməməsi ilə diqqət çəkmişdir. Beləliklə, Türkmənistan türk respublikaları və hətta post-sovet ölkələri arasında media qanununu dəyişdirən ən sonuncu ölkə olmuşdur (9, s. 175). Həmçinin, müstəqillikdən sonra yaradılan bəzi media orqanları maliyyə çətinliyi səbəbindən qısa müddət sonra bağlanmaq məcburiyyətində qalmışdır. Bu vəziyyət müstəqil media təşəbbüslərinin davamlılığına ciddi maneələrin olduğunu göstərmişdir. Dövlət medianın bütün sahələrində öz üstünlüyünü qoruyub saxlayaraq, bu sahədə nəzarəti gücləndirmişdir. Hazırda Türkmənistanda media üzərində mütləq nəzarət və monopoliyanın mövcud olduğunu söyləmək mümkündür.

Televiziya Türkmənistanda ən populyar media vasitəsidir. Dövlət yayım mediasına bir sıra milli televiziya və radio şəbəkələri daxildir. Lakin bu media orqanları dövlət nəzarətində olduğundan xəbərlərə senzura tətbiq edilir və azad mətbuat mühiti yaradıla bilmir. Rusiya televiziyalarının təkrar yayımları da senzuraya məruz qalır. Azad Avropa/Azadlıq Radiosu "Radio Azatlyk" adı altında qısa dalğa və peyk vasitəsilə Türkmənistan dilində yayımlanır. Bununla belə, bu cür müstəqil xəbər mənbələrinə çıxış məhduddur və hökumət tərəfindən ciddi nəzarət altındadır

(13).

2013-cü ildə senzuranı qadağan edən qanun olsa da, Türkmənistanda bütün media xəbərləri hökumət tərəfindən idarə olunur və çapdan əvvəl xüsusi icazə tələb olunur. "Qadağan edilmiş saytların" ictimai reyestri olmasa da, yeni media mütəmadi olaraq bloklanır. Eyni zamanda, Türkmənistanda hökumət internetə də ciddi nəzarət edir. Burada vətəndaşların internetdə dünya miqyasında məlumat mənbələrinə çıxışı məhduddur və onların VPN istifadə etmələri cərimə ödəmələrinə səbəb olur (14).

**İkinci Qarabağ müharibəsinin Türkmənistan mediasında əksi**

Türkmənistan 1988-1994-cü illərdə, hələ Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanla Ermənistan arasındakı münaqişədə neytral mövqe nümayiş etdirməyə çalışmışdır. Müstəqil Türkmənistanın ilk prezidenti Saparmurad Niyazovun hakimiyyəti dövründə ölkənin xarici siyasəti, ümumilikdə, neytrallığa və regional sabitliyə yönəlmişdir. Bu müddət ərzində Türkmənistan regional mübahisələrə müdaxilə etməkdənsə, dialoq və diplomatiyanı təşviq etməyə meyil etmişdir. Türkmənistan bu mövqeyini İkinci Qarabağ müharibəsi zamanı qorumuş, tərəfsizliyini nümayiş etdirmişdir. Türkmənistanın daimi neytrallıq statusu ölkənin regional və qlobal məsələlərdə tərəf tutmamaq siyasətinin göstəricisi olaraq dəyərləndirilmişdir. Türkmənistan mediasına nəzarət olduğundan müharibəyə münasibətdə dövlətin mövqeyini əks etdirən materiallar yayımlanmışdır. 2020-ci il oktyabrın 4-də "Orient.tm" internet saytında yayımlanmış "Dağlıq Qarabağda şiddətli toqquşmalar baş verir" başlıqlı materialda tərəflərin bəyanatlarına yer verilmiş, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana tam dəstəyi, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasını tələb etməsi haqqında məlumatlar oxucuların diqqətinə çatdırılmışdır. Bununla bərabər olaraq, Azərbaycanın hərbi itkilər barədə məlumat verməməsi, qoşunların irəliləyişi ilə bağlı açıqlamaların Ermənistan tərəfindən təkzib edilməsi məsələsinə toxunulmuşdur (18). Həmin portalın 2020-ci il oktyabrın 8-də yayımlanan "Əliyev və Paşinyan-Qarabağ münaqişəsini necə həll etmək barədə" başlıqlı digər məlumatında Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında Dağlıq Qarabağla bağlı münaqişənin dərinləşdiyi və ölənlərin sayının artdığı vurğulanmış, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın "Euronews" telekanalına verdiyi müsahibələrdə onların məsələ ilə bağlı münasibət və gözləntilərinə yer verilmişdir (15).

"Orient.tm" internet saytının 2020-ci il oktyabrın 13-də yayımlanan "Moskva Bakı və İrəvanı Qarabağda atəşkəsə əməl etməyə çağırır" sərlövhəli materialında Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanla keçirdiyi birgə mətbuat konfransında Dağlıq Qarabağdakı vəziyyətlə bağlı razılaşmaların tam yerinə yetirilməməsi ilə bağlı bəyanatlarına yer verilmişdir. S.Lavrovun Rusiyanın Bakı və İrəvandan razılaşmaların ciddi şəkildə yerinə yetirilməsini gözlədiyi, həmçinin üçtərəfli formatda əldə olunmuş razılaşmaların tam şəkildə həyata keçirilməsi üçün aparılan təmasların bu məqsədə çatmaqda səmərəli olacağına ümid etdiyi qeyd olunmuşdur (20). Qeyd edilən internet resursunun 2020-ci il oktyabrın 16-da yayımlanan "Mülki əhali Dağlıq Qarabağdan qaçır" başlıqlı xəbər diqqətçəkən olmuşdur. Xəbərdə Dağlıq Qarabağda atəşkəsə baxmayaraq, silahlı qarşıdurmanın davam etməsi, "Euronews"un çəkiliş qrupunun bölgəyə səfəri və hadisələrin ümumi gedişatı haqqında məlumat verilmiş, qoşunların təmas xəttinin daim hərəkətdə olduğu bildirilmiş, pilotsuz təyyarələrdən istifadənin münaqişənin yeni elementinə çevrildiyi, bu cür öldürücü silahlardan istifadənin böyük itkilərə səbəb olduğu vurğulanmışdır. Dağlıq Qarabağ münaqişəsinin mürəkkəbliyi və həll olunmaması əsas sonluq kimi verilmişdir (19). "Qarabağda torpağa sancılmış süngü müharibənin sonu deməkdir" başlığı ilə yayımlanmış növbəti materialda Rusiya Prezidenti Vladimir Putinin 2020-ci il noyabrın 10-da Dağlıq Qarabağda atəşin dayandırılması ilə bağlı açıqlamasına yer verilmiş, Rusiya sülhməramlılarının Dağlıq Qarabağa yerləşdiriləcəyi bildirilmişdir. Paralel olaraq Azərbaycanın Rusiyaya məxsus Mi-24 helikopterini səhvən vurması və Azərbaycan Xarici İşlər Nazirliyinin hadisə ilə bağlı açıqlaması oxucuların diqqətinə çatdırılmışdır (17). Ümumiyyətlə, "Orient.tm"

internet saytı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif xəbərlər və təhlillər təqdim etməklə regionda baş verən prosesləri izləyən platforma kimi ön plana çıxmışdır. Saytda dərc olunan materiallar Türkmənistanın bu münaqişə ilə bağlı rəsmi mövqeyini əks etdirmişdir.

Türkmənistan Dövlət Agentliyinin yayımladığı materiallarda oxşar vəziyyət müşahidə olunmuş, Rusiyanın vasitəçilik rolu xüsusilə ön plana çıxarılmışdır. 2020-ci il oktyabrın 10-da Türkmənistan Dövlət Agentliyinin rəsmi internet səhifəsində yayımlanmış “TASS: Ermənistan və Azərbaycan Dağlıq Qarabağda atəşkəs mövzusunda razılaşdı” başlıqlı materialda Ermənistan və Azərbaycan arasındakı son hadisələrlə bağlı Moskvada keçirilən məsləhətləşmələrin təfərrüatlarına diqqət yetirilmiş, elan edilmiş atəşkəs rejiminin Rusiya Prezidenti Vladimir Putinin çağırışına cavab olaraq qəbul edildiyi xüsusilə vurğulanmışdır (24). İkinci Qarabağ müharibəsini yaxından izləyən resurslar arasında “Azadlıq” radiosunun Türkmənistan bürosu da olmuşdur. 2020-ci il sentyabrın 28-də “Azadlıq” radiosunun Türkmənistan bürosunun rəsmi internet saytında yayımladığı materialda münaqişənin təfərrüatlarına diqqət yetirilmiş, Ermənistanın baş naziri N.Paşinyanın hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycan parlamentinin isə hərbi vəziyyət elan etməsi barədə məlumatları oxuculara təqdim olunmuşdur. Materialda həmçinin Azərbaycanın əks-hücum əməliyyatına başladığı bildirilmiş, tərəflər arasındakı münaqişədə mülki itkilərin olduğu vurğulanmışdır. Bundan başqa, Avropa Şurasının baş katibi Mariya Peyçinoviç Buriçin və ATƏT-in Minsk Qrupu həmsədrlərinin münaqişənin həlli üçün danışıqlara yenidən başlamaq çağırışlarına diqqət çəkilmiş, 1988-1994-cü illər arasında baş vermiş silahlı münaqişə zamanı Dağlıq Qarabağın və Azərbaycanın yeddi rayonunun işğal olunması, bu müddət ərzində verilən itkilər xüsusilə vurğulanmışdır (16). “Azadlıq” radiosunun Türkmənistan bürosunun 2022-ci il oktyabrın 8-də yayımladığı “Paşinyan və Putin Qarabağdakı muzdluları müzakirə ediblər” başlıqlı materialında Rusiya Prezidenti Vladimir Putinin muzdlularla bağlı narahatlığına, bu məsələ ilə bağlı danışıqlara önəm verməsinə diqqət çəkilmişdir. Ermənistanın baş naziri N.Paşinyanın muzdluların bölgədə qalacağı və onların fəaliyyət sahələrinin genişləndiriləcəyi ilə bağlı iddialarına yer verilmiş, eyni zamanda, Azərbaycanın muzdlularla bağlı ittihamları rədd etməsi qeyd olunmuşdur (21). Adı çəkilən büronun 2020-ci il oktyabrın 16-da yayımladığı “Dağlıq Qarabağ haqqında bilinməsi lazım olan beş şey” başlıqlı məqalə məsələyə ətraflı şəkildə aydınlıq gətirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Məqalədə birinci amil kimi Qafqaz regionunun tarixi və müxtəlif güclərin bölgəyə marağı əsas götürülərək Dağlıq Qarabağın mühüm region olduğu qeyd olunmuşdur. İkinci amil olaraq Stalinin rəhbərliyi ilə 1920-ci illərdə Dağlıq Qarabağın sərhədlərinin müəyyənləşdirilərək, Azərbaycan SSR-in tərkibinə daxil olması göstərilmişdir. Üçüncü, M.Qorbaçovun yenidənqurma dövründə Dağlıq Qarabağın müstəqilliyini elan etməsi prosesindən və 1992-ci ildə Sovet qoşunlarının bölgədən çıxarılması ilə genişmiqyaslı müharibənin başlamasından bəhs edilmişdir. Dördüncü, 1994-cü ildə atəşkəs razılaşmasının əldə olunması, Dağlıq Qarabağın statusu və ətraf rayonların taleyi ilə bağlı Fransa, Rusiya və ABŞ-dan ibarət Minsk Qrupunun uğursuz səyləri qeyd olunmuşdur. Beşincisi isə 2020-ci ildə baş verən münaqişələrə diqqət yetirilmiş, xüsusilə, Azərbaycanın Türkiyədən aldığı dəstək və Rusiyanın regiondakı rolu vurğulanmışdır (23).

Atəşkəs razılaşmasından sonra 2020-ci il noyabrın 11-də yayımlanmış növbəti materialda Ermənistanın baş naziri N.Paşinyanın Dağlıq Qarabağda müharibənin bitdiyini elan etməsindən sonra İrəvanda baş verən etirazlardan bəhs edilmişdir. Müharibə əleyhdarı olan etirazçıların hökumət binasına basqın etmələri, Paşinyanın sülh sazişi ilə bağlı açıqlamaları əsas mövzulardan biri kimi ön plana çıxarılmışdır. Bundan əlavə, materialda, sülh sazişinin təfərrüatları, Rusiya sülhməramlılarının Dağlıq Qarabağa göndərilməsi, regionda ərazi mübadiləsi və sazişin icrası prosesi diqqət mərkəzində yer almışdır. Materialda habelə Prezident İlham Əliyevin çıxışları və Türkiyənin bu məsələdə rolu haqqında məlumatlar oxuculara çatdırılmışdır. Qəzaya uğrayan Rusiya helikopteri və bu hadisənin yaratdığı diplomatik gərginlik, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun açıqlamaları, Türkiyənin Azərbaycanı təbrik etməsi kimi məsələlər materialın məzmununda qeyd olunan digər əhəmiyyətli mövzular sırasında yer almışdır (22).

**Nəticə**

Araşdırma nəticəsində gəlinən qənaətə görə, Azərbaycanın Mərkəzi Asiya, regionun türkdilli dövlətləri, o cümlədən Türkmənistanla günü-gündən və yeni reallıqlara uyğun şəkildə inkişaf edərək strateji səviyyəyə yüksələn əlaqələri hər zaman medianın diqqətində olmuşdur. Müxtəlif sahələri əks etdirən Azərbaycan-Türkmənistan münasibətlərinin daha da inkişaf etməsində qarşılıqlı səfərlərin xüsusi əhəmiyyəti olmuşdur. Hər iki ölkə müstəqillik əldə etdikdən sonra əməkdaşlığa başlamış, müxtəlif illərdə münasibətlərdə soyuqluq və gərginlik müşahidə olunsa da, Azərbaycan və Türkmənistan dövlət başçılarının rəsmi və işgüzar səfərləri, həmin səfərlər zamanı aparılan müzakirələr və əldə olunmuş razılaşmalar əlaqələrin gələcək istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamış və bütün bunlar medianın diqqətində olmuşdur. Qeyd edilənlərlə yanaşı, Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlər – Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, həmçinin müşahidəçi üzv Macarıstan və Türkmənistanın dövlət rəsmilərinin türkdilli dövlətlərin media və kommunikasiya sahəsində əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində davamlı olaraq keçirdikləri görüşlər türk dünyasının birlik, həmrəylik və əməkdaşlıq ideyasını rəhbər tutaraq möhkəmlənən əlaqələrinin media sahəsində də uğurla davam edəcəyinə öz təsirini göstərməkdədir.

İkinci Qarabağ müharibəsinə münasibətdə Türkmənistan mediasında yayımlanmış materiallar bu ölkənin dövlət siyasətinə uyğun olaraq neytral şəkildə təqdim edilmiş, münaqişənin tarixi kontekstinin düzgün təqdim edilməsinə çalışılmış, liderlərin bəyanatlarına, beynəlxalq reaksiyalara yer verilmişdir.

Türkmənistan mediasında İkinci Qarabağ müharibəsi ilə bağlı materialların məhdud olması bu ölkənin regional münaqişələrdən uzaq durmağa meyilliliyi, neytral oyunçu kimi qalmağa çalışması və medianın daha çox daxili məsələlərə yönəlməsi ilə bağlı olmuşdur.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb: [Azerbaijannews.az] (https://www.azerbaijan-news.az/az/posts/detail /azerbaycan-prezidenti-ilham-eliyev-turkmenistanprezidenti-qurbanqulu-berdimehemmedov-ile-gorushub-17527) iyun 12, 2015.
2. Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Xarici Işlər Nazirlərinin ikinci üçtərəfli görüşünün nəticələrinə dair Birgə Bəyanat: [Mfa.gov.az] (https://mfa.gov.az/az/news/azerbaycan-respublikasi-turkiyerespublikasi-ve-turkmenistanxarici-isler-nazirlerinin-ikinci-ucterefli-gorusunun-neticelerine-dair-birge-beyanat) yanvar 30, 2015.
3. Qəribov A. Azərbaycan Mərkəzi Asiya münasibətləri. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017, 904 s.
4. Musayev M. Azərbaycan-Türkmənistan arasında diplomatik əlaqələrin yeni mərhələdə inkişafı // Tarix və onun problemləri, №2, s.140-145.
5. Azerbaycan-Ekonomik İşbirliği Teşkilatı (EİT) İlişkileri: [Lib.aliyevheritage.org] (https://lib.aliyevheritage.org/tk/4271680.html) iyul 1, 2010.
6. Hasanoğlu M. Bağımsızlık Sonrası Azerbaycan-Türkmenistan arasındakı siyasi ve sosyo-ekonomik ilişkiler // Asya Araştırmaları Dergisi, 2021, №5-1, s. 23-36.
7. Özdoğan, G.G. Sovyetler Birliği'nden Bağımsız Cumhuriyetler'e: Uluslaşmanın Dinamikleri. Ankara: T.C. Kültür Bakanlığı Yayınları, 1994, 299 s.
8. Öztopal, M.K. Azerbaycan ile İlişkileri Bağlamında Türkistan Devletlerinin Dağlık Karabağ Konusundaki Tutum ve Tepkileri // Giresun Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi, 2021, №7-1, s. 216-232.
9. Temir, E. Türk Cumhuriyetleri`nde Medya. Ankara, 2021, 224 s.
10. Baku Statement of the First Trilateral Meeting of the Ministers of Foreign Affairs of the Republic of Azerbaijan, the Republic of Turkey and Turkmenistan: [Mfa.gov.tr] (https://www.mfa.gov.tr/baku-statement-of-the-firsttrilateral-meeting-of-the-ministers-of-foreign-affairs-of-the-republic-of-azerbaijan_-the-republic.en.mfa) may 26, 2014.

11. Caspian Summit fails to clarify status, resource issues: [Rfrel.org], noyabr 19, 2010. (https://www.rferl.org/a/Caspian_Summit_Fails_To_Clarify_Status_Resource_Issues/2225159).
12. Fourth Caspıan Sea Summıt: movıng closer to accord? [Visions.az] (http://www.visions.az/en/news/591/29a590b4/) iyul-oktyabr, 2014.
13. Turkmenistan media guide: [Bbc.com] (https://www.bbc.com/news/world-asia-16095369) mart 24, 2022.
14. Turkmenistan: [Rsf.org] (https://rsf.org/en/country/turkmenistan), 2023.
15. Алиев и Пашинян - о том, как разрешить Карабахский конфликт: [Orient.tm] (https://orient.tm/ru/post/25191/v-mire-kak-razreshit-konflikt-v-karabahe-i-kuda-vedet-borba-za-vlast-v-kyrgyzstane) oktyabr 08, 2020.
16. Армения и Азербайджан обвинили друг друга в нападении и артобстрелах: [Azathaber.com] (https://rus.azathabar.com/a/armenia-azerbaijan-karabakh/30861169.html) sentyabr 28, 2020.
17. В Карабахе штык в землю – конец войне! [Orient.tm] (https://orient.tm/ru/post/25615/v-mire-v-karabahe-shtyk-v-zemlju-konec-vojne-a-v-peru-impichment-prezidentu-za-vzyatki) noyabr 10, 2020.
18. В Нагорном Карабахе идут тяжелые бои [Orient.tm] (https://orient.tm/ru/post/25131/v-mire-v-karabahe-idut-tyazhelye-boi-a-novaya-kaledoniya-ne-hochet-nezavisimosti-ot-francii) oktyabr 04, 2020.
19. Мирные жители бегут из Нагорного Карабаха [Orient.tm] (https://orient.tm/ru/post/25292/v-mire-premer-kyrgyzstana-stal-i-vrio-prezidenta-a-zhiteli-karabaha-begut-ot-vojny) oktyabr 16, 2020.
20. Москва призывает Баку и Ереван соблюдать перемирие в Карабахе [Orient.tm] (https://orient.tm/ru/post/25242/v-mire-v-karabahe-nikak-ne-nastupit-peremirie-a-poholodanie-tolko-usilit-koronavirus) oktyabr 13, 2020.
21. Пашинян и Путин обсудили наемников в Карабахе [Azathaber.com] (https://rus.azathabar.com/a/30881853.html) oktyabr 08, 2020.
22. Протесты в Ереване, ограбление Пашиняна и миротворцы из России и Турции. Главное по Нагорному Карабаху [Azathaber.com] (https://rus.azathabar.com/a/30941180.html) noyabr 11, 2020.
23. Пять вещей, которые нужно знать про Нагорный Карабах: [Azathaber.com] (https://rus.azathabar.com/a/armenia-azerbaijan-karabakh/30897116.html) oktyabr 16, 2020.
24. ТАСС: Армения и Азербайджан договорились о прекращении огня в Нагорном Карабахе [Tdh.gov.tm] (https://tdh.gov.tm/ru/post/24594/tass:-armeniya-i-azerbaidzhan-dogovorilis-o-prekraschenii-ognya-v-nagornom-karabakhe) oktyabr 10, 2020.


***Резюме***

***Парвана Ибрагимова***

***Азербайджано-Туркменские отношения в рамках стратегического сотрудничества тюркских государств и Вторая Карабахская война в Туркменских СМИ***

Азербайджан на протяжении всей своей истории поддерживал прочные связи с тюркским миром, основанные на исторических, культурных и языковых связях, и стремился расширить эти связи с распадом Советского Союза. В частности, в рамках Организации тюркских государств Азербайджан предпринял важные шаги по расширению экономического, культурного и политического сотрудничества между тюркскими государствами. Достигнутые соглашения и проекты сотрудничества в области энергетики, торговли, образования и культуры еще больше укрепили связи Азербайджана с тюркским миром. В этом контексте Вторая Карабахская война вызвала широкий резонанс в тюркском мире и создала атмосферу солидарности, которая объединила тюркские государства в регионе. Борьба Азербайджана за возвращение Нагорного Карабаха получила большую поддержку со стороны всего тюркского мира. Поддерживая Азербайджан на дипломатической арене, тюркские государства внесли свой вклад в его усилия по справедливому и устойчивому разрешению конфликта. Одним словом, эта борьба Азербайджана укрепила чувства единства и солидарности в тюркском мире, показала пример солидарности, основанной на общих историко-культурных связях. Азербайджан после Второй Карабахской войны еще больше расширил свои связи с тюркскими государствами, стремясь увеличить региональное сотрудничество. Одной из стран, с которыми были укреплены связи в этом

направлении, стал Туркменистан, который как одно из тюркских государств Центральной Азии примечателен своим географическим положением, богатыми энергетическими ресурсами и самобытными культурными особенностями. Соглашения, достигнутые между Азербайджаном и Туркменистаном в области энергетики, привели к повышению энергетической безопасности в регионе. Также большое значение имело сотрудничество между Азербайджаном и Туркменистаном в культурной и образовательной сферах. Между двумя странами были реализованы программы мероприятий и обменов в области языка, литературы, искусства и культуры.

Целью исследования является анализ азербайджано-туркменских отношений в рамках стратегического сотрудничества тюркских государств, изучение отношения СМИ этой страны ко второй Карабахской войне. С этой целью были всесторонне изучены перспективы развития отношений между Азербайджанской и Туркменской Республиками, а также изучена общая структура туркменских СМИ. В статье также были оценены и проанализированы материалы туркменских СМИ о Второй Карабахской войне с разных точек зрения.

**Ключевые слова:** *Азербайджан, Туркменистан, Вторая Карабахская война, стратегическое сотрудничество, туркменские СМИ*

***Summary***

***Parvana Ibrahimova***

***Azerbaijan-Turkmen relations within the framework of strategic cooperation of turkic states and the Second Karabakh war in the Turkmen media***

Throughout history, Azerbaijan has established strong relations with the Turkic world based on historical, cultural and linguistic ties, and tried to expand these relations with the collapse of the Soviet Union. Especially within the framework of the Organization of Turkic States, Azerbaijan has taken important steps in the direction of increasing economic, cultural and political cooperation between the Turkic states. Agreements and cooperation projects in the fields of energy, trade, education and culture have further strengthened Azerbaijan's relations with the Turkic world. In this context, the Second Karabakh War caused a wide echo in the Turkish world and created an environment of solidarity that brought together the Turkish states in the region. Azerbaijan's struggle to regain Nagorno-Karabakh has received great support from the entire Turkic world. By supporting Azerbaijan in the diplomatic arena, the Turkish states have contributed to its efforts towards a fair and lasting solution to the conflict. In a word, this struggle of Azerbaijan has strengthened the feelings of unity and solidarity within the Turkic world and demonstrated an example of solidarity based on common historical and cultural ties. After the Second Karabakh War, Azerbaijan tried to increase regional cooperation by further expanding its relations with the Turkish states. One of the countries where relations were strengthened in this direction was Turkmenistan, which stands out for its geographical position, rich energy resources and unique cultural characteristics as one of the Turkic states of Central Asia. Agreements reached in the field of energy between Azerbaijan and Turkmenistan led to the increase of energy security in the region. Also, the cooperation between Azerbaijan and Turkmenistan in the cultural and educational fields has also gained great importance. Events and exchange programs have been implemented between the two countries in the fields of language, literature, art and culture.

The purpose of the research is to analyze Azerbaijan-Turkmenistan relations within the framework of strategic cooperation of Turkish states, to investigate the attitude of the media of this country to the Second Karabakh War. For this purpose, the development prospects of the relations between the Republics of Azerbaijan and Turkmenistan have been comprehensively studied, and at the same time, the general structure of the Turkmen media has been studied. The article also evaluated and analyzed the materials in the Turkmen media related to the Second Karabakh war from different aspects.

**Keywords:** *Azerbaijan, Turkmenistan, Second Karabakh war, strategic cooperation, Turkmen media*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Məmmədov Hikmət Baba oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.